# Azərbaycan dünyaya günəş kimi doğdu

Azərbaycanın müstəqillik salnaməsinin ən önəmli hadisələrindən olan Milli Qurtuluş Gününün 30 illik yubileyini böyük təntənə ilə qeyd edirik. Çünki Azərbaycanın ötən 30 ildəki nailiyyətlərinin özülü 1993-cü 15 iyun tarixindən başlayır. Lakin etiraf etməliyik ki, bu, heç də asan əldə edilmədi. Hətta Azərbaycan yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Həmin vaxt Azərbaycan bəlkə də tarixinin ən ağır, çətin anlarını keçirib.



Çünki gənc Azərbaycan dövlətində hakimiyyət boşluğu yaranmışdı, dövlət təsisatları dünyəvi siyasətin tələbləri səviyyəsində fəaliyyət göstərə bilmirdi. AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin özbaşınalıqları, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması, ölkə daxilində vətəndaş müharibəsi şəraitinin yaranması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Sonralar bu acınacaqlı durumla bağlı danışarkən Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Xalq yeganə çıxış yolu kimi dahi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi və Ulu Öndər Azərbaycanı düşdüyü vəziyyətdən xilas etmək üçün hakimiyyətə qayıtdı. Bu, böyük fədakarlıq idi. Milli qarşıdurma həddində olan respublikada siyasi stabillik yaratmaq olduqca çətin olsa da, Ulu Öndər bunu həll etdi.

Ulu Öndər Heydər Əliyev televiziya ilə xalqa müraciət edi. Bu müraciət dövlət-xalq birliyinin möhkəmləndirilməsi niyyəti kimi tarixləşdi. Dahi şəxsiyyət, böyük siyasət fenomeni olan Heydər Əliyev milli qarşıdurmanın yarandığı əraziyə - Gəncəyə getdi. Onun bu missiyası Azərbaycan dövlətçiliyini iflasdan xilas etdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın dövlətçiliyi xilas edildi, ölkənin parçalanmasının qarşısı alındı, asayiş, qayda-qanun möhkəmləndirildi, ordu nizami silahlı qüvvələr kimi formalaşdırılmağa başladı və yeni bir mərhələyə qədəm qoydu, idarəetmə sistemi formalaşdırıldı. Böyükmiqyaslı beynəlxalq müqavilələr imzalandı ki, bu da Azərbaycanın iqtisadi qüdrətinin yüksəlişini təmin etdi. Ölkədə ilk parlament seçkiləri keçirildi, referendum yolu ilə Konstitusiya qəbul edildi. Bunlar Azərbaycanın dünyəvi dövlət kimi tanınmasında mühüm əhəmiyyətə malik oldu.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə dünya Azərbaycanlılarının I Qurultayı keçirildi, bu təşəbbüs azərbaycançılıq ideologiyasının dünyəvi mahiyyətinin gerçəkləşdirilməsini təmin etdi. "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi Ulu Öndərin xalqımızın qədim mədəniyyətinin, ədəbiyyatının həm təbliği, həm də mühafizəsi baxımından misilsiz tədbir kimi tarixləşdi.

Ulu Öndərin ən böyük arzusu Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi idi. Bu arzunu isə layiqli varisi Prezident İlham Əliyev gerçəkləşdirdi. İkinci Qarabağ müharibəsində ordumuz qazandığı zəfərin başlanğıc tarixi məhz Milli Qurtuluş Günü hesab olunur.

Çağdaş Azərbaycanın gerçəkliklərini Prezident İlham Əliyev belə ümumiləşdirib: "Danılmaz həqiqətdir ki, Azərbaycanın müasir və müstəqil dövlət kimi mövcudluğu, inkişafı XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin ilk illərinə təsadüf edən Milli Qurtuluş Günü ilə əlaqədardır. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi".

2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi də həm Ulu Öndərə, həm də 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətinə ehtiramın ifadəsidir. Bunları dünya dövlətləri də etiraf edir.

Ulu Öndərin söylədiyi kimi, Azərbaycan dünyaya günəş kimi doğdu.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

Azərbaycan. - 2023.- 15 iyun.- S.16.